**Xalq rəssamı Əzim Əzimzadənin ev muzeyində Xalq rəssamı, professor Arif Hüseynovun yeni çəkdiyi "Əzim Əzimzadə dünyası" adlı portret janrlı qrafik əsərinin təqdimatında görkəmli fırça ustasının milli rəngkarlığımızın inkişafında xidmətlərindən, eləcə də unudulmaz sənətkara həsr edilmiş rəsmlərdən söhbət açılıb.**

# Arif Hüseynovun "Əzim Əzimzadə dünyası"

Muzeyin direktoru İradə Əzimzadə bildirib ki, Əzim Əzimzadə incəsənət tarixində karikatura, satirik qrafika, kitab qrafikasının əsasını qoymuş dahi rəssamlarımızdan biri olmuşdur. Yaradıcılığa "Molla Nəsrəddin", "Zənbur", "Kəlniyyət" və s. kimi satirik jurnallarda karikaturalarını dərc etdirməklə başlamış gənc rəssam Sabirin "Hophopnamə"sinə illüstrasiyalar çəkməklə özünü yetkin sənətkar kimi təsdiq etmişdir. Arif Hüseynovun təsvir etdiyi qrafik tablonun mərkəzində də Əzimzadənin gənclik dövrlərinin portreti əks olunub. Qiymətli eksponatların toplandığı muzeydə bu əsər də öz layiqli yerini tutacaq.



Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağəli İbrahimov, Əməkdar jurnalist, professor Etibar Babayev və digər çıxış edənlər dahi rəssamın obrazı əks olunan və böyük maraqla qarşılanan əsərin məhz Əzim Əzimzadənin ev muzeyində təqdim edilməsini sənət hadisəsi kimi dəyərləndiriblər.

Arif Hüseynov təqdim etdiyi əsərinin ərsəyə gəlməsindən söhbət açaraq tablonun məhz Əzim Əzimzadənin şəxsi molberti üzərində nümayiş etdirilməsindən böyük şərəf duyduğunu söyləyib.

Xatırladaq ki, Arif Hüseynov Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli kimi bir çox dahilərin, tarixi şəxsiyyətlərin silsilə portretlərini yaratmışdır.

**Ziyarət CABAROVA,**
**sənətşünas**

Xalq qəzeti .- 2023.- 10 yanvar.- S.10.